

*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

**Qəbələ rayonunun ictimai-siyasi qəzeti**

*1933-cü ildən nəşr olunur*

**№ 40-41**
**(7089-7090)** ✲ **Bazar ertəsi, 27 may 2013-cü il** ✲ **Qəzet ayda 4 dəfə çıxır** ✲ **Qiyməti 40 qəpik**




## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycn Prezidenti İlham Əliyev Şamaxı rayonuna səfər etmişdir.

Ölkə başçısı burada bir sıra obyektlərin açılışında iştirak etmiş, Şamaxı Cümə məscidinin əsaslı bərpa və yenidənqurmadan sonra istifadəyə verilməsinin açılış mərasimində nitq söyləmişdir.

✲ ✲ ✲

Dövlətimizin başçısı İlham Əliyev mayın 19-da ölkəmizdə işgüzar səfərdə olan Yunanıstanın Baş naziri Antonis Samaras ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Yunanıstan arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, mədəni sahələrdə uğurla inkişaf etdiyi vurğulanmış, ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın bundan sonra da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu göstərilmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılmışdır.

✲ ✲ ✲

Prezident İlham Əliyev Bakının Nərimanov rayonu ərazisində yeni salınan Dədə Qorqud parkında həyata keçirilən işlərlə tanış olmuşdur.

Dövlət başçısı parkın ərazisini gəzmiş, görüləcək işlərlə bağlı müvafiq tapşırıqlarını vermişdir.

✲ ✲ ✲

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İspaniyanın müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

✲ ✲ ✲

Prezident İlham Əliyev Gürcüstanın daxili işlər nazirini qəbul etmişdir.

✲ ✲ ✲

Dövlətimizin başçısı İlham Əliyev Türkiyənin milli təhsil nazirinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərində, o cümlədən təhsil sahəsində uğurlu inkişafdan söhbət getmiş, bu sahədə sıx əməkdaşlığın gələcəkdə uğurlu olacağı vurğulanmışdır.

**Miri RƏHİMOV.**

## 2020-ci ildə futbol üzrə Avropa çempionatının keçirilməsi üçün Bakı şəhərinin namizədliyinin irəli sürülməsi ilə bağlı tədbirlər haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycanın artan beynəlxalq nüfuzu və idmana dövlət qayğısı sayəsində hər il ölkəmizdə beynəlxalq səviyyəli müxtəlif idman yarışları, o cümlədən dünya və Avropa çempionatları keçirilir. Belə yarışlar sırasında futbol xüsusi yer tutur. 17 yaşınadək qadınlar arasında futbol üzrə dünya çempionatının final mərhələsinin 2012-ci ildə Azərbaycanda keçirilməsi bunun bariz nümunəsidir.

Respublikamızda futbolun inkişafı və təbliği məqsədi ilə 2020-ci ildə futbol üzrə Avropa çempionatının keçirilməsi üçün Bakı şəhərinin namizədliyi irəli sürülmüşdür. Belə mötəbər yarışın Bakıda keçirilməsi Azərbaycanda futbolun daha da inkişafına və idman aləmində ölkəmizin nüfuzunun artmasına kömək edər.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2020-ci ildə futbol üzrə Avropa çempionatını keçirmək üçün Bakı şəhərinin namizədliyinin irəli sürülməsi ilə bağlı qərara alıram:

1. 2020-ci ildə futbol üzrə Avropa çempionatının təşkil edilməsi ilə əlaqədar namizədliyin qəbul edilməsi proseduruna uyğun olaraq, Avropa Futbol Assosiasiyaları İttifaqına (UEFA) təqdim edilmək üçün sifariş kitabı hazırlansın.
2. Sifariş kitabının hazırlanması və bununla bağlı təşkilati işlərin görülməsi Azərbaycan Futbol Federasiyaları Assosiasiyasına (AFFA) həvalə olunsun.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
*Bakı şəhəri, 22 may 2013-cü il.*

## *28 May—Respublika Günüdür*

# Müstəqilliyimiz əbədidir

***«Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dünya miqyasında bir tarixi hadisə idi. İlk dəfə Şərqdə, müsəlman aləmində demokratik respublika yaranmışdı. Azərbaycan xalqı üçün isə bu xüsusi əhəmiyyətli hadisə idi. Azərbaycan xalqı öz müstəqil dövlətini yaratmışdı. Əsrlər boyu müstəqillik arzusu ilə yaşayan Azərbaycan xalqı, nəhayət, öz müstəqil dövlətinə nail oldu».***

**İlham Əliyev.**

Azərbaycan! Doğulub boya-başa satdığımız doğma torpaq. Ana vətənimiz, mübarizlər, qorxmazlar, atəşürəklilər torpağı odlar yurdumuz.

Vətən bizim üçün əzizdir, müqəddəsdir, munisdir—bizi dünyaya gətirən anamız kimi. Vətən sevgisi əzəli və əbədi bir sevgidir, heç vaxt öz təravətini və gücünü itirmir.

Vətən və Azadlıq. Azad olmayan vətəndə azad vətəndaş ola bilməz, azad yaşamaq da olmaz. Azadlıq verilmir, satılmır, onu hər bir xalq öz igid oğul və qızlarının şücaəti sayəsində qazanır, onların canı və qanı bahasına öz müstəqilliyinə qovuşur. Artıq neçə illərdir ki, vətənimiz Azərbaycan müstəqilliyə qovuşub, azad və suveren bir respublikadır. Amma bu azadlığı qazanmaq bizim üçün heç də asan başa gəlmədi, bunun üçün bizə əsrlər, qərinələr lazım gəlib. Doğma torpağımızı yağılardan qorumaq üçün canından keçmiş vətənpərvər oğullarımız bütün varlığını, ömrunu öz xalqına, millətinə həsr etmiş ulularımız bu günki nəsillərə müqəddəs örnək yeridir. Çünki məhz belə qeyrətli övladlarının sayəsində Azərbaycan xalqı öz müstəqilliyinə qovuşdu.

XX əsrin əvvəlləri xalqımız üçün çox ağır, keşməkeşli, təlatümlü illər oldu. Uzun illər çar üsul-idarəsinin hakimiyyəti altında yaşayan Azərbaycan xalqı sanki üfüqdə doğacaq bir azadlıq günəşinin həsrətində idi. Bu günəş onsuz da qaranlıqlara qənim kəsilərək doğmaq iqtidarında idi. 1917-ci ilin oktyabrında bolşeviklər tərəfindən çar hakimiyyətinə son qoyuldu və Sovet dövləti adlanan bir qurum yaradıldı. Bundan bir qədər sonra Zaqafqaziya respublikaları Sovet Rusiyasından ayrıldı və Zaqafqaziya Seymi elan edildi. Lakin bu seymə daxil olan Azərbaycan, Cürcüstan, Ermənistan nümayəndələri arasında anlaşılmazlıqlar olduğu üçün bu qurum tezliklə dağıldı. Belə bir vəziyyət Azərbaycan üçün təhlükəli idi, çünki Sovet Rusiyası bu fürsətdən hər an istifadə edə bilərdi. Vəziyyətin gərgin olduğunu görən Zaqafqaziya seyminin müsəlman fraksiyası 1917-ci ildə Tiflisdə öz fövqəladə iclasını çağırdı. İclasda Azərbaycan Milli Şurası yaradıldı. 1918-ci il mayın 28-də Milli Şura Azərbaycanın dövlət müstəqilliyi haqqında «İstiqlal bəyannaməsi»ni qəbul etdi. 24 səslə qəbul edilən və altı bənddən ibarət olan «İstiqlal bəyannaməsi» Azərbaycan millətinin varlığını bütün dünyaya bəyan etdi. Xalqımızın demokratik, hüquqi azad bir dövlət yaratmaq əzmində olduğunu bəşəriyyətə nümayiş etdirdi. Azərbaycanın öz müstəqilliyini elan etməsi barədə 1918-ci il mayın 30-da dünyanın siyasi mərkəzlərinə radio-teleqrafla məlumat verildi.

**(Ardı 2-ci səhifədə).**